# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA HEYVAN SAĞLAMLIĞININ ROLU

**Eldar Həsənov**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Heyvandarlığın təşkili və monitorinqi şöbəsi*

Ərzaq təhlükəsizliyi hazırda bəşəriyyətin ən qlobal problemlərindən biri olmaqla, hər bir ölkə üçün onun həlli prioritet hesab edilir. Ərzaq təhlükəsizliyinin təminatında kənd təsərrüfatının, xüsusilə heyvandarlıq sektorunun və heyvan sağlamlığının əvəzedilməz əhəmiyyəti vardır. Sağlam heyvan yetişdirmədən təhlükəsiz ərzaq məhsullarının istehsalı, o cümlədən sağlam cəmiyyətin formalaşdırılması qeyr-mümkündür. Hazırda işğaldan azad olunmuş ərazilər hesabına ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması üçün yeni perspektivlər yaranmışdır. Lakin həmin ərazilərin mövcud epizootoloji vəziyyəti və yetişdiriləcək heyvanların sağlamlığının qorunmasında risklər mövcuddur. Odur ki, işğaldan azad olunmuş ərazilərdə heyvandarlıq sektorunun bərpası və optimallaşdırılması üçün heyvan sağlamlığının qorunması zərurəti vardır.

Məqsəd işğaldan azad olunmuş ərazilərdə ərzaq təhlükəsizliyinin təmin olunması üçün heyvan sağlamlığının qorunması və risk faktorlarının müəyyən edilməsindən ibarətdir.

Torpaqlarımızın işğal altında olması həmin ərazilərdəki mövcud resurslardan istifadəni məhdudlaşdırmışdır. Belə ki, fauna və florası ilə zəngin olan Qarabağ və onun ətraf rayonları əvvəllər ərzaq təhlükəsizliyinin təmin olunmasında 20 faizdən çox paya malik olmaqla, respublika üzrə (1980-ci illərin statistikasına əsasən) iribuynuzlu heyvanların təxminən 16%-i, xırdabuynuzlu heyvanların 19%-i saxlanılmış, həmçinin, ölkə üzrə heyvan mənşəli məhsulların (ət, süd, yun, yumurta və s.) istehsalının 15-20%-i bu bölgələrin payına düşmüşdür. Yay otlaqlarının 40%-i (1000 ha-dan çox) Kəlbəcər-Laçın iqtisadi rayonlarında olmaqla 30-dan çox rayonun heyvandarlıq təsərrüfatları bu ərazilərdən istifadə etmişdir. Heyvandarlıq sektorunun bərpası, heyvanların sağlamlığının qorunması üçün aparılmış monitorinqlərin nəticələrinə uyğun olaraq regionun epizootoloji vəziyyəti haqqında heç bir məlumat əldə edilməmişdir. Epizootoloji vəziyyətin qeyri müəyyənliyinin, ekoloji tarazlığın pozulmasının heyvan sağlamlığı üçün risk faktoru olduğu müəyyən edilmişdir. Ərazilərin faunasının zənginliyini nəzərə alsaq (müharibə şəraitində vəhşi heyvanlar arasında miqrasiyalar olsa belə), heyvanların xəstəliyə yoluxma riski qaçılmazdır. Belə ki, zoonoz xəstəliklərdən hesab olunan quduzluq xəstəliyinin rezervuarının (tülkü, çaqqal, canavar və s.) daima təbiətdə mövcud olması və həmin heyvanların fermalara hücumu yoluxma, tələfat riskini artırır.

İşğaldan azad olunmuş ərazilərdə heyvan sağlamlığı qorunmaqla heyvandarlıq sektorunun formalaşdırılması və ərzaq təhlükəsizliyinin təmin olunması, quduzluq xəstəliyinin qarşısının alınması məqsədilə vəhşi təbiətdə oral vaksinasiyanın aparılması, sahibli ev heyvanlarının vaksinasiyaya cəlb edilməsi, sahibsiz itlər üçün isə sığınacaqların təşkil edilməsi təklif olunur.